***Bismillahir-rəhmanir-rəhim***

# XUMS

**© Gürcüstan Müsəlmanları İdarəsi 2019**

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى
وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِن كُنتُمْ آمَنتُمْ بِاللّهِ وَمَا أَنزَلْنَا عَلَى عَبْدِنَا
يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

***"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-biri ilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, həqiqətən əldə etdiyiniz mənfəətin beşdən biri Allah, Rəsulu, onun yaxınları, yetimlər, miskinlər və yolda qalanlar üçündür. Allah hər şeyə qadirdir."***

***(Ənfal surəsi, ayə: 41)***

**Kitabçada yalnız hər kəsə aid olan Qazanc mənfəətinə aid olan xumsun hökümləri qeyd olunmuşdur.**

***Hökümlər Ayətullah Seyid Əli Xameni və Ayətullah Seyid Əli Sistaninin fətvaları əsaslanmışdır.***

# XUMS

Müsəlmanların iqtisadi cəhətdən vəzifələrindən biri "xums" ödəməkdir. Yəni sonradan deyiləcək hallarda insanın öz malının 1/5 hissəsini müəyyən yerlərdə istifadə üçün şəri hakimə ödəməsidir.

***Yeddi halda xums vacibdir:*** [1] •*

**1- Qazanc mənfəəti;**

2- Mədən;

3- Xəzinə;

4- Harama qarışmış halal mal;

5- Suyun dibinə girməklə əldə edilən cəvahirat;

6- Müharibə qənimətləri;

7- Zimmi kafirin•* müsəlmandan aldığı torpaq.

## Xums verməməyin nəticəsi

1– Xumsu verilməmiş şeydən istifadə etmək olmaz.

2– **Xumsu və zəkatı verilməmiş pulun eyni ilə müəyyən bir mülk alınsa, o mülkdən istifadə etmək haram, onda qılılnan namaz batildir.

3–**Hamamçıya xumsu verilməmiş pul verib hamamda qüsl olunsa, qüsl batildir.

---

[1] Lənkərani. T.m, məs.1816; Sistani. T.m, məs.1760

• Zimmi kafir-İslam dövlətinin himayəsində yaşayıb onun qanunlarına itaət edən kafir

* Sistani:.. məşhur nəzərə əsasən...

* *Sistani: Xumsu verilməmiş pulla müəyyən bir mülk alınsa, o mülkdən istifadə etmək haramdır, ehtiyati-vacibə əsasən orada qılınan namaz batildir. T.m, məs.882

* Sistani: Əgər xumsu verilməmiş pulu hamamçıya versə, haram iş görmüş olsa da, zahir budur ki, onun qüsulu səhihdir və xums düşən şəxslərin haqqı onun boynunda qalır. T.m, məs.389

## Qazanc mənfəəti

**əgər insan**
- ***– ticarət***
- ***– sənətkarlıq***
- ***– və ya başqa qazanc yerlərin-***

⇒ qazanc əldə etsə və bu özünün və ailəsinin illik xərclərindən artıq qalsa, onun xumsunu, yəni 1/5-ni sonradan deyiləcək qaydada verməlidir.

***İnsana müəyyən miqdarda irs çatsa***

1– əgər mal sahibinin həmin malın xumsunu vermədiyini bilsə ⇒ Onun xumsunu verməlidir.

2– əgər o malın özündə xums olmasa, amma malı miras olaraq çatan şəxsin ⇒ xumsu onun malından verməlidir.[2]

# Nələrə xums düşməz

### Xümsün istisnaları

### Xümsü olmayan vəsait, əmlak və əşyalar:

**1- Hədiyyə**

İnsan hədiyyə edilən pul, cins, mülk, məhsul, əşya və hər hansısa bir nəsnənin xümsü yoxdur. Əlbəttə, əgər xüms ilinin sonunadək istifadəsiz qalarsa, ehtiyat müstəhəb budur ki, xümsü verilsin.

Hədiyyənin hökmündə olanlar:

a) İş yerindən verilən bonus: nağd pul və ya ticarət üçün qəbz.

b) Qocalara verilən təqaüd pulu, şəhid ailələrinə, qazilərə və əsirlikdən azad edilənlərə verilən müavinət.

c) Dövlət tərəfindən verilən subsitlər

d) Bayram hədiyyələri

e) Bankdan verilən mükafatlar

f) Təhsilə kömək xərcləri, təhsil haqqı

*Qeyd: Əgər ər və arvad və valideyn və övladlar xümsdən yayınmaq üçün bir- birinə hədiyyə versələr və ya onların ürfi şəninə uyğun olmasa, əldə edilən vəsaitin xümsünü vermək vacibdir.

**2. Mehriyyə**
**3. İrs**
**4. Vəqf yolu ilə insan çatan əmlak və əşya.**
**5. Valideynin övladlara, vladların valideynə və kişinin arvadına verdiyi xərclik.**
**6. Sığorta şirkətinin ömrünü və ya maşınını sığortalamış insana çəkdiyi zərərin qarşılığında ödədiyi pul.**
**7. Diyə***

* İslam qanunlarına görə, qəsdən cinayət törətmiş hər bir şəxs etdiyi əmələ müvafiq surətdə cəriməni zərərçəkənə ödəməlidir. Bu cəriməyə "diyə" deyilir. Diyənin miqdarı törədilən cinayətin ağırlığından asılıdır. Məsələn, xüsusilə ağır olan qətl cinayətinə görə, cani ya öldürülməli, ya da zərərçəkən tərəfə diyə ödəməlidir. Bəzən əks tərəf diyəni qəbul etməklə razılaşır və beləliklə cani ölümdən xilas olur. Diyənin hökmləri mürəkkəbdir, bu barədə ətraflı məlumat almaq üçün mütləq şəriət kitablarına müraciət olunmalıdır.

**8. Xümsü** öncədən verilmiş vəasit, əmlak və əşya, “müxəmməs”.
**9. Məunə:** Yaşamaq üçün zəruri olan xərclər, vəsait, əmlak və əşya.

**Məunə də üç qismdir:**

**9-1. İstehlak* məhsulları:** Düyü, çay, yağ, un, benzin, telefon konturları və sair məhsullar ki, il ərzində nə qədər istehlak edilsə, "məunə"dən hesab edilir və xüms ilinin başında artıq qalanının xümsü verilir.

*Gündəlik zəruri tələbatı və ehtiyacı təmin etmək üçün hər hansı məhsulu əldə edərək, ondan istifadəetmək, işlətmək, sərf etmək.

**9-2. İstifadə ilə tez məhv olmayan, davamlı və qalıcı əşyalar:** Paltar, döşənəcək, qab, kitab, televizor və sair. Bunların "məunə" olmasının meyarı budur ki, il ərzində istifadə etməsə belə, insanın onlara ehtiyacı və ürfi şəninə uyğun olsun.

**9-3: Daşınmaz əmlak:** Ev, torpaq və sair ki, insanın ürfi şəninə münasib və ehtiyacı olsun.

** İnsan "Məunə" sayılan əşyanı xüms ilinin sonunadək istifadə etsə və xüms ilindən sonra satsa, onun satışından qazandığı pula xüms düşmür. Həmçinin əgər xüms ilinin sonunda həmin əşyadan istifadə etməyərək bir kənara qoyarsa, yenə də xümsü yoxdur.

**10. Borc:** İnsanın (şəxslərdən və ya kredit ilə banklardan) borc aldığı və istifadə etmədən gələcəkdə ehtiyacı olacağı gün üçün saxladığı pulun xümsü yoxdur. Amma həmin borcun ödədiyi miqdarının xümsünü verməlidir.

İnsan öz borclarını xüms ilinin başında illik gəlirdən artıq qalan puldan çıxsın. Məgər ki, borcu həmin ilin dolanışıq xərcləri üçün almış olsun. Əlbəttə insan xüms ili başa çatmamış bütün borclarını ilin gəlirindən verə bilər.

## Xumsun hökmləri

1– Xərcləri başqası tərəfindən verilən şəxs, əldə etdiyi bütün malların xumsunu verməlidir.

2– Əgər qənaət etməklə müəyyən bir şey illik xərclərdən artıq qalsa, onun da xumsunu verməlidir.

3– Tacir, sənətkar və s. kimi şəxslər işə başladığı vaxtdan bir il keçəndə, illik xərclərindən artıq qalanın xumsunu verməlidirlər. Amma peşəsi ticarət, sənətkarlıq və s. olmayan bir kəs, təsadüfən müəyyən qədər mənfəət əldə etsə, qazanc əldə etdiyi müddətdən bir il keçdikdən sonra illik xərclərindən artıq qalan hissəsinin xumsunu verməlidir.

4– Insan, ilin əsnasında hər vaxt mənfəət əldə etsə, onun xumsunu verə bilər. Xums verməyi ilin axırına qədər təxirə salmaq da olar. Xumsu vermək üçün milad və şəmsi ilini də başlanğıc götürmək olar.

5– Əgər qazanc mənfəətindən illik istifadə olunan azuqə alınsa və ilin axırında artıq qalsa, artıq qalanın xumsunu verməlidir.*

**Həddi-büluğa çatdığı vaxtdan xums verməyən bir şəxs**[3]

- 1– Qazanc mənfəətindən ehtiyacı olmayan bir şey alsa və üstündən bir il keçsə ⇨ Onun xumsunu verməlidir
- 2– Ehtiyacı olan və iqtisadi mövqeyinə uyğun ev əşyaları, mənzil ava-danlığı və s. olsa.
  - -Onları gəlir əldə etdiyi işin əsnasında aldığını bilsə ⇨ Xums verməsi lazım deyil
  - -İl boyunca, yaxud il tamam olandan sonra aldığını bilməsə* ⇨ Ehtiyati-vacibə əsasən came-üş-şərait müctəhidlə razılaşmalıdır

---

* Sistani: ..ehtiyati-vacibə əsasən ehtimal etdiyi miqdar şəri hakim ilə razılaşdırılmalıdır, yəni əgər 50%-nin xumsunun vacib olduğunu ehtimal versə, 50% xumsunu verməlidir. T.m, məs.: 1806

## Bir neçə şəri suala cavab:

***Sual:*** Qızıma bir qədər məişət avadanlığı cehiz vermişəm. Bu cehizə xums gələrmi?

***Cavab:*** Əgər verdiyiniz cehiz xalqın nəzərində sizin vəziyyətinizə uyğundursa, onda verdiyiniz məişət avadanlığına xums gəlməz.[1]

***Sual:*** Aylıq əmək haqqı alan şəxs o pulları evlənmək üçün gələcəyə ehtiyat saxlasa, onlara xums gələrmi?

***Cavab:*** Əgər aylıq əmək haqqından alınan pulların özünü ehtiyat saxlasa, onda ona ilin başında xums gələr, hətta gələcəkdə evlənən zaman cehiz almaq üçün olsa da.

***Sual:*** Tələbə üçün özünün gəliri olmadığı halda, atanın pulu ilə və ya universitetin verdiyi borcla aldığı kitablara xums vacibdirmi? Həmçinin, əgər məlum olsa ki, atası onun aldığı kitablara xərc olunan pulun xumsunu verməyib, onda vacib olarmı?

***Cavab:*** Borcla alınan kitablara, eləcə də atanın hibə etdiyi pulla alınan kitablara xums gəlmir. Amma əgər o malların özünün xumsunun verilməməsi məlum olsa, onda onların xumsunun verilməsi vacibdir.

***Sual:*** Mən öz evimi, başqa ev almaq niyyəti ilə satdıqdan sonra puluma xums gəldiyini başa düşdüm. Hal-hazırda əgər bu pulun xumsunu versəm, daha ev ala bilməyəcəyəm. Onu da qeyd edim ki, evimi satmazdan əvvəl o evi döşəmək üçün xalça-palaz almağa ehtiyacım var idi. Bu məsələnin hökmü necədir?

***Cavab:*** Əgər satılan evin pulu həmin il yaşamaq üçün ehtiyaclı olduğunuz evin alınmasına, yaxud dolanışığa sərf olunsa, onda onlara xums gəlməz.

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 873

***Sual:*** Insanın özünün və ya ailəsinin ehtiyacına görə illik qazancından alınan ev, maşın və başqa əşyaları zəruri halda satanda və ya ondan yaxşısı ilə dəyişəndə hökmü necə olar?

***Cavab:*** Xums ilində dolanışıq üçün lazım olan şeyləri satmaqla əldə edilən puldan həmin şeylərdə sərf olunsa, ona xums vacib deyildir. Amma belə olmazsa, ehtiyata görə vacibdir ki, xums ili çatanda onun xumsunu versin. Amma əgər gələn ilin dolanışığında sərf etmək üçün saxladığı hissə ehtiyacını ödəməsə, ona xums vacib deyildir.[1]

***Sual:*** Bir nəfərin şəxsi kitabxanası var və orada olan kitablardan müəyyən vaxtlarda istifadə edir. Onun üstündən illər keçir, lakin onlardan bir daha istifadə olunmur. Amma gələcəkdə istifadə olunması ehtimalı var. Istifadə olunmayan müddətdə o kitablara xums gəlirmi? Həmçinin, xumsun vacib olmasında o kitabların özü və ya atası tərəfindən alınmasının fərqi vardırmı?

***Cavab:*** Əgər o kitablara gələcəkdə müraciət etmək üçün ehtiyac olacaqsa və onlar xalqın nəzərində həmin adamın öz səviyyəsinə uyğundursa, onda onlara, bir müddət istifadə etməsə də belə xums gəlmir. Həmçinin əgər o kitablar ona valideynlərindən və ya başqa adamlardan irs, yaxud hədiyyə yolu ilə çatıbsa, ona xums gəlmir.

***Sual:*** Ərin öz arvadı üçün aldığı qızıla xums gəlirmi?

***Cavab:*** Əgər onun öz vəziyyətinə münasib olan adi səviyyədirsə, onda ona xums vermək lazım deyildir.

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 909

## Xumsun istifadə yerləri

***Xumsu iki yerə bölmək lazımdır***[2]

***1. İmamın payı:*** Bu zəmanəmizdə cameüş-şərait müctəhidə verilməli, yaxud onun icazə verdiyi yerlərdə istifadə olunmalıdır.**

***2. Seyyidlərin payı:***

– ***Ehtiyati-vacibə əsasən cameüş-şərait müctəhidə verilməlidir

– Yaxud

- ya fəqir seyyidə
- ya yetim seyyidə
- ya da səfərdə yolda qalmış seyyidə

⇨ Verilməlidir

***Bu seyyidlərə xums verilməməlidir:***

1- Səfərdə yolda qalan bir seyyidin səfəri günah səfəri olsa, ehtiyati-vacibə görə ona xums verilməməlidir.[1]

2- On iki imamı (ə) qəbul etməyən seyyidə xums vermək olmaz.

3- Günah edən seyyidə xums verilməsi onun günahlarına kömək olarsa,* ona xums vermək olmaz.

4- Aşkar surətdə günah edən seyyidə.

*1– Xums verilən yetim seyyid fəqir olmalıdır: ancaq səfərdə yolda qalan seyyid, hətta öz vətənində fəqir olmasa da, ona xums vermək olar.

2– Bir kəs öz şəhərində seyyid olması ilə məşhur olsa,** hətta insanın onun seyyid olmasına yəqini olmasa da, onun seyyid olmasına etimad etdiyi halda ona xums vermək olar.[1]

3– Ehtiyati-vacib budur ki, bir nəfər fəqir seyyidə bir illik xərclərindən artıq miqdarda xums verilməsin.

## Xums ili təyin etmək

***Məsələ)*** Xums ilinin başlanmasında mükəlləfin təyin etməsinə ehtiyac yoxdur (yəni xums ilinin əvvəli mükəlləfin təyin etməsilə müəyyən olmur), o, həqiqi bir vaxtdır ki, öz-özlüyündə illik gəlirin ələ gəlmə vaxtı əsasında hasil olur. Buna əsasən işçi və fəhlə kimi şəxslərin xums ilinin başlaması birinci maaş və muzdlarını almaq imkanı olan zamandır, tacirlərin və alverçilərin xums ilinin əvvəli ticarət və alverə başladıqları tarixdəndir və əkinçilərin xums ilinin başlanğıcı birinci məhsulu ələ gətirdikləri zamandandır.

***Məsələ)*** Yuxarıdakı məsələdə deyildiyi kimi, işçi və fəhlə kimi, maaş və muzd alan şəxslərin xums ilinin başlanğıcı maaşlarını və muzdlarını aldıqları yaxud ala bildikləri gündən hesablanır nəinki işə başladıqları gündən.

---

* Sistani: ... Ehtiyati-vacibə əsasən ona xums verilməməlidir.

** Sistani: İnsanın onun söylədiklərinin xilafına yəqinliyi, yaxud əminliyi olmasa, onda xums vermək olar. T.m, məs.1849

[1] Lənkərani. T.m, məs.1907

***Məsələ)*** Xums ilini həm hicri-qəməri həm də, hicri-şəmsi (yaxud miladi) tarixilə götürmək olar və bu seçimdə mükəlləf azaddır.

## Sərmayənin xumsunu hesablamaq və ödəməyin yolları

***Məsələ)*** Sərmayənin xumsunu hesablamaq üçün, əvvəl xums ilinin başında bütün mallarını qiymət edib və bütün nağd pullarını hesablayıb xumsunu ödəməli və sonrakı ildə mövcud pulunun məcmusunu əsl sərmayə ilə (yəni ötən ildə xumsunu verdiyi sərmayə ilə) müqayisə etməli və əgər əsl sərmayədən artıq olarsa, mənfəət sayılır və artığının xumsunu ödəməlidir, amma əgər birinci sərmayədən artıq olmazsa xums vacib deyil. Məsələn, əgər bir şəxsin sərmayəsi doxsan səkkiz baş qoyun və bir miqdar nağd puldursa, əgər ilin sonunda mövcud qoyunlarla nağd pulun məcmusu, doxsan səkkiz baş qoyunun qiyməti və keçən il əldə olduğu nağd pul miqdarından artıq ola, artığın xumsunu ödəmək vacibdir.

***Məsələ)*** Vacibdir sərmayənin xumsunun hesabında (nağd olmayan) mallara qiymət müəyyən edilsin, hərçənd onun mümkün olması təxminlə olsa belə.

***Məsələ)*** Hədiyyə və sair kimi xumsu olmayan mal sərmayə ilə qarışarsa, ilin sonunda onu sərmayədən istisna etmək caizdir (olar), belə ki, onu gəlirdən kəsr edib qalanın xumsunu versin. Amma əgər onun sərmayəsi elədir ki, öz məunəsini sərmayədən götürür, mağazaçı kimi, bu təqdirdə sərmayədən götürmək məqsədi olmadan sərmayədən xərclədikləri xumsu verilmiş və verilməmiş mallar arasında nisbi olaraq paylanmalıdır.

***Məsələ)*** Əgər şəxs keçmiş gəlirlərinin xumsunu hesablamağının səhihliyində şəkk edə, yenidən xums ödəmək vacib deyil. Amma əgər gəlirin keçmiş ilə ya indiki ilə aid olmasında şəkk edərsə, vacibdir ehtiyat üzündən onun xumsunu versin.

***Məsələ)*** Əgər bir şeyin xumsunu verib-verməməyində şəkk edə, şəkk etdiyi şey xums vacib olanlardan olarsa, vacibdir xumsunu ödəməyinə yəqin hasil etsin. [1]

***Məsələ)*** Gəlirinə xumsun vacib olub-olmamasını bilməyən şəxslərə vacibdir ki, hakimi şərlə və ya onun vəkili ilə müsalihə etsin. Məsələn, əgər bir şəxsin yəqini vardır ki, mənzil aldığı pul onun qazancla ələ gətirdiyi pul ilə olubdur, lakin şəkk edir ki, xums ilinin arasında o pulu veribdir yoxsa xums ili yetişdikdən sonra və pulun xumsunu vermədən (bu halda deyildiyi kimi sülh etməlidir).

***Məsələ)*** Məlum olan xumsu müsalihə etmək olmaz, (müsalihə şəkkli olan yerlərə aiddir).

## Bir neçə şəri suala cavab:

***Sual:*** Əgər insanın mallarına haram mal qarışsa, onun hökmü necə olar və necə halala çıxar? Həmçinin, bu qarışan şeyin haramlığı yəqin olsa və ya olmasa necədir və o şəxsə vacib olan vəzifə nədir?

***Cavab:*** Əgər malların içərisində haram bir şeyin olması yəqin olsa, lakin dəqiq şəkildə onun miqdarını bilməsə və sahibini tanımasa, onda onun halala çıxmaq yolu xumsunun verilməsi

---

*[1]. Belə bir şəkk zamanı xumsu verməyə yəqin hasil etmək onun xumsunu ödəməklə ələ gəlir.(Mütərcim)*

ilədir. Amma əgər haram bir şeyin qarışmasında şəkk etsə, onda ona heç bir şey lazım deyildir.

***Sual:*** Ev kirayə edən adamın ev sahibinə "rəhn" (girov) adı ilə verdiyi pula xums vermək ev sahibinə vacibdir, yoxsa kirayəçiyə?

***Cavab:*** Əgər o pul qazancdandırsa, onda qaytarıldıqdan sonra kirayəçiyə onun xumsunu vermək vacibdir və borc adı ilə o pulu alan ev sahibinə xums vermək vacib deyildir.

***Sual:*** Ev ləvazimatlarının xumsu necə hesablanır?

***Cavab:*** Xalça və bu kimi özü saxlanılmaqda istifadə olunan avadanlıqlara xums yoxdur, amma düyü, zeytun və bu kimi gündəlik tələbat mallarına (ilin axırına qalanlara) xums gələr.

***Sual:*** Mənim bir neçə dəst qab-qacaq varımdır. Onların bəzisini işlətdikdə xumsun vacib olmamasına kifayət edərmi?

***Cavab:*** Mənzil və ev avadanlıqlarına xumsun vacib olmasının meyarı xalqın nəzərində onlara öz səviyyənizə uyğun ehtiyacınızın olmasıdır, hətta il ərzində ondan istifadə etməsəniz də.

***Sual:*** Əgər bəzi qab-qacaq və döşənəcəklərin üstündən bir il keçərək işlətməsəm, lakin həmin şeylərdən qonaqlar üçün istifadə etməkdə ehtiyacım olsa, onların xumsunu vermək vacibdirmi?

***Cavab:*** Onların xumsunu vermək vacib deyildir.[1]

***Sual:*** Çox cildli kitabların yalnız bir cildini oxumaqla o kitabların hamısının üzərindən xums götürülər, yoxsa cildlərin hər birindən bir neçə səhifə oxumaq lazımdır?

***Cavab:*** Əgər o cildlərin hamısına ehtiyac varsa, yaxud o kitabların bütün cildləri hamısı birlikdə (ayrı-ayrı deyil) satılırsa, onda xums yoxdur. Əgər belə olmazsa, onda hal-hazırda ehtiyac olmayan cildlərin xumsunu vermək vacibdir və təkcə o kitabların

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 926

hər bir cildindən bir səhifə oxumaq xumsun gəlməməsi üçün kifayət etməz.

***Sual:*** Bir nəfərin bir qədər torpaq sahəsi var, amma orada yaşamaq üçün evi yoxdur. Torpaq sahəsini özünə ev tikmək üçün almışdır. Əlində kifayət qədər pul olmadığı üçün, orada nə ev tikə bilib, nə də ki, satıb. Ona xums vacibdirmi? Vacib olan təqdirdə, o yeri alarkən verdiyi pulun xumsunu versin, yoxsa indiki qiymətlə hesablansın?

***Cavab:*** Əgər onu, alınan ildə ehtiyaclı olduğu evi tikmək üçün alıbsa, onda ona xums gəlməz.

***Sual:*** Yuxarıda qeyd olunan sualda əgər ev tikilməyə başlansa və qurtarmamış üstündən bir xums ili keçsə, o binada işlənən materiallara xums vacib olarmı?

***Cavab:*** Sualda göstərilən şəraitdə xums vacib olmaz.

## *MƏSUMLAR (Ə) XUMS BARƏSİNDƏ*

***Xums məsələsi İslam Peyğəmbərinin (s) zamanından bəri olmuş və tarix boyu məsum İmamların (ə) vasitəsilə toplanaraq öz sahiblərinə çatdırılmışdır. İmam Zamanın (ə.c) qeybə çəkilmaəsindən sonra bu iş İmamın xüsusi vəkillərinə, daha sonra isə ədalətli din alimlərinə və müctəhidlərə tapşırılmışdır.***

*İmam Sadiq (ə) buyurmuşdur: "İlk dəfə öz malının xumsunu çıxaran şəxs Hz. İbrahim (ə) olmuşdur."*

*Xums məsələsi İslamdan əvvəl də qanun kimi insanlar arasında icra olunurdu. İslam dini bir çox şeyləri cəmiyyətdə olduğu kimi saxlamış və müsəlmanların məsləhətinə xatir onları vacib etmişdir.*

*İslam Peyğəmbərindən (s) rəvayət olunur ki, Əli (ə)-a buyurur:*

*"Ey Əli! Əbdül-Mütəllib cahiliyyət dövründə beş şeyin əsasını qoymuş və İslam da onu təsdiqləmişdir;*

*1. Ataların arvadlarını övladlarına haram etmişdir;*

*2. Xəzinə taparkən onun beşdən birini (xumsunu) çıxarıb vermişdir;*

*3. Həccə gələnlərə yolda su paylamışdır;*

*4. İnsanın qan bahasını yüz dəvə qərar vermişdir;*

*5. Kəbəni yeddi dəfə təvaf etmişdir;"*

*Qeyd olundu ki, xums ümumiyyətlə İmamın və seyyidlərin payıdır. Bu barədə İmam Sadiq (ə) buyurur:*

*"Qiyamət günü insanın ən çətin halı o vaxtdır ki, xums sahibi (xumsu alan) Allah dərgahında dayanıb xumsun ona çatmamasından şikayətlən-sin!"*

*İmam Sadiq (ə) xumsu verilməyən malın istifadəsi barəsində buyurur:*

*"Heç kəs xumsunu vermədiyi təqdirdə onu öz malına qatıb yeyə bilməz...."*

*İmam Baqir (ə) isə xums barəsində belə buyurur:*

*"Bizim haqqımızı (xumsu) vermədiyi halda xumsu olan mal ilə bir şey almaq heç kəsə halal deyildir."*